UOT 372.894(47)Az

***Turanə Fazil qızı İsmayılova,***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*

# ALİ MƏKTƏBLƏRDƏ AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ TƏLƏBƏLƏRİN İDRAK FƏALLIĞININ İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

***Турана Фазиль гызы Исмайлова,***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# ПУТИ РАЗВИТИЯ ПОЗНАВАТЕЛЬНОЙ АКТИВНОСТИ СТУДЕНТОВ ПРИ ПРЕПОДАВАНИИ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В ВУЗАХ

***Turana Fazıl Ismailova,***
*teacher of Azerbaijan State Pedagogical University*

# WAYS TO DEVELOP STUDENTS' COGNITIVE ACTIVITY IN THE TEACHING OF AZERBAIJANI HISTORY IN UNIVERSITIES

**Xülasə:** Məqalədə ilk növbədə ali məktəblərdə Azərbaycan tarixin tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsinin müasir rolu və imkanlarından bəhs olunur. Elmi araşdırmalar və təcrübə göstərir ki, Azərbaycan tarixi dərslərinin tədrisində idrak fəallığının inkişafının nəzərə alınması tələbələrin akademik mühitdə və gündəlik həyatda uğur qazanmasına təkan verir . Buna görə də tələbələrin idrak fəallığının inkişaf etdirilməsinə Azərbaycan tarixinin müasir interaktiv metodlarla tədrisində ciddi əhəmiyyət verilməlidir.

***Açar sözlər:*** *ali məktəb, Azərbaycan tarixinin tədrisi, təlim prosesi, təfəkkürün növləri, idrak, müasir interaktiv təlim metodlar*

**Резюме:** В статье, прежде всего, обсуждается современная роль и возможности развития познавательной активности студентов при преподавании истории Азербайджана в университетах. Научные исследования и опыт показывают, что учет развития познавательной активности при преподавании уроков истории Азербайджана побуждает учащихся добиваться успехов в академической среде и в повседневной жизни. Современные интерактивные методы обучения важны для повышения качества обучения студентов вузов. Поэтому серьезное внимание следует уделять развитию познавательной активности студентов при преподавании истории Азербайджана с использованием современных интерактивных методов.

***Ключевые слова:*** *университет, преподавание истории Азербайджана, учебный процесс, типы мышления, познание, современные интерактивные методы обучения.*

**Summary:** The article, first of all, discusses the modern role and opportunities for the development of cognitive activity of students in teaching the history of Azerbaijan in universities. Scientific research and experience show that taking into account the development of cognitive activity when teaching the lessons of the history of Azerbaijan encourages students to achieve success in the academic environment and in everyday life. Modern interactive teaching methods are important for improving the quality of education for university students. Therefore, serious attention should be paid to the development of students' cognitive activity when teaching the history of Azerbaijan using modern interactive methods.

***Key words:*** *high school, teaching the history of Azerbaijan, learning process, types of thinking, cognition, modern interactive teaching methods*

Ali təhsil sistemi üçün müasir dövrün tələbləri tədris prosesinin təşkili üçün yeni şərtləri diktə edir. Müasir universitet müəllimi qarşısında duran vacib vəzifələrdən biri universitetdə təlim sessiyalarının təşkilində yeni yanaşmaların tətbiq edilməsindədir. Bu isə ilk növbədə ali məktəb tələbələrinin tədris prosesinin müstəqillik və idrak fəaliyyətinin inkişafına yönəldilmə-

sindən irəli gəlir. S.A.Məmmədov və R.J.Əliyev ali məktəblər üçün hazırladıqları proqramın izahat vərəqində yazırlar: "Hər bir mövzunun məzmununa uyğun yeni təlim metodu seçilməli və tətbiq edilməlidir" [3, s. 3].

Prof. A.O. Mehrabov problemlə bağlı yazır: "Yeni təlim metodlarının tətbiqinə həm müəllimlər, həm də təhsil alanlar dərindən yiyələnməlidirlər" [1, s. 39].

Təhsil islahatı proqramında təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici təlim metodlarının geniş tətbiqinə diqqət verilməsi tövsiyə edilir. Metodlar içərisində fəal təlim metodları önəmli rola malikdir.

I. Fəal təlim zamanı təhsilalanlar , öyrənənlər təlim prosesinin tamhüquqlu iştirakçıları olurlar və elmin yeniliklərini, yeni bilikləri fəal axtarış və kəşflər zamanı mənimsəyirlər [5, s. 83].

II. İnteraktiv təlim – təlimin qarşılıqlı əlaqəsidir. İnteraktiv dərslərdə debat, diskussiya, əqli hücum və ya qruplarla iş, rollu oyun və s. təlim metodlarıdan istifadə edilir.

İnteraktiv təlimin əsas hədəfi tələbələr üçün idrak fəallığını inkişaf etdirə bilən rahat əlverişli öyrənmə və öyrətmə mühiti yaratmaq, onların tədris prosesində özlərini məhsuldar hiss etmələri üçün əlverişli şərait yaratmaqdır. Ən vacib məsələ isə fəal interaktiv təlim zamanı tələbələrin yaradıcı fəaliyyəti , idrak fəaliyyətidir.

III . Fəal təlimdə yaradıcılıq böyük əhəmiyyət kəsb edir. Yaradıcılıq hər hansı bir yeniliyin yaradılmasına yönəldilmiş prosesdir [5].

Müasir kurikulumların tələbələrini əsas götürsək Azərbaycan tarixi dərslərində təlim prosesində tələbələrdə idrak fəallığının formalaşdırılması üçün aşağıdakı əlamətlər səciyyəvidir.

a) iki tərəfli xarakter; b) müəllimlərin və tələbələrin birgə fəaliyyəti; c) təlimə müəllim tərəfindən rəhbərlik edilməsi; ç) tələbələrin təhsil-tərbiyəsini, inkişafını və formalaşmasını, plana uyğun surətdə təşkil və idarə etmək; d) təlimdə tamlığı təmin etmək; e) təlimin tələbələrin yaş və inkişafını qanunauyğunlarına müvafiqliyinin təmin edilməsi. ə) tələbələrin təlimə yaradıcı mövqeyini stimullaşdırmaq.

Beləliklə, Azərbaycan tarixi üzrə təlim prosesi – müəllimin rəhbərliyi altında tələbələrin Vətən tarixinin Azərbaycan tarixinin əsaslarını dərk etməsi prosesidir.

Araşdırmalar göstərir ki, Azərbaycan tarixi üzrə təlim prosesinin planlaşdırılması elmi – məntiqi ardıcıllıqla əsaslandıqda təlimdə keyfiyyət dəyişikliyi baş verir. Burada əsasən öyrədici mühitin yaradılması və ondan istifadə edilməsi tələbələrin idrak fəallığının formalaşdırılmasının təşkili və ona nəzarət, dərsin 7 mərhələlərinin ardıcıllıqla planlaşdırılması və təlim fəaliyyətinin yaradıcı təşkili və ona nəzarət edilməsi məsələləri əsas götürülür.

C.U. Arxanqelski ali məktəbdə təlimin nəzəriyyəsinə dair mühazirələr adlı monoqrafiyasında təlimin təşkili problemlərini araşdırmışdır [6, s. 14].

B.J. Xanter yazır: "Təlimdə uğur qazanmaq üçün öyrənənlərin kompüter texnologiyasından istifadə vərdişlərinə yiyələnmələrinə nail olmaq lazımdır. [7, s. 87] Vətən tarixinin təlim məqsədlərinə nail olmaq üçün ən səmərəli təlim metodları və strategiyaları, fənninin tədrisində istifadə olunan forma və üsulların mövzuların məntiqi quruluşuna uyğun seçilməlidir. İnteraktiv təlim qarşılıqlı əlaqəyə əsaslanır.

Həllinə çalışdığımız problemin həllinə yeni təlim metodlarından istifadə etməklə nail olmaq olar. Ona görə ki, fəal təlim yaradıcı bir prosesdir və bu zaman: 1) əməkdaşlıq şəraitində yeni bilik kəşf olunur; 2) kəşf olunmuş yeni bilik əsaslandırılır. Bununla da tələbələrdə yaradıcı, məntiqi və tənqidi təfəkkürün inkişafına motiv yaradılır. [4]

Beləliklə, interaktiv təlimin əsas məqsədi müəllim tərəfindən tələbənin özünün biliklərini kəşf edəcəyi, əldə edəcəyi və quracağı şərtləri yaratmaqdır.

1.Tənqidi təfəkkür-daxil olan məlumatı qiymətləndirmək qabiliyyətidir. Yəni öyrənənə verilən məlumatı onun süzgəcindən keçirərək müsbət və mənfi cəhətlərini göstərməklə qiymətləndirmək qabiliyyətidir.

2. Didaktik təfəkkür – hadisələrdə ziddiyyətlərin vəhdətini və mübarizəsini, yeniliklərin necə yarandığını görmək və onların inkişaf istiqamətlərini aşkar etmək nəzərdə tutulur.

3. Məntiqi təfəkkür - müqayisə, ümumiləşdirmə, təsnifat və sistemləşdirmə bacarığıdır. Ümumiləşdirmə - cisim və hadisələri ümumi və mühüm xüsusiyyətlərinə görə fikrən birləşdirməkdir. Təsnifat -əşyaları mühüm xüsusiyyətlərinə görə fikrən siniflərə ayırmaqdır. Sistemləş-

dirmə - obyektləri müəyyən qayda üzrə düzmək. Onlar arasında ardıcıllığı müəyyən etmək, yəni sistemə salmaq deməkdir. Ümumiyyətlə, biliklərin qavranılması, köhnə biliklərlə yeni biliklər arasında sıx bağlılıq başa düşülməlidir.

4. Ümumiləşmiş –oxşar və fərqli cəhətləri aşkar etmək kimi qəbul edilir.

5. Kateqorial təfəkkür -oxşar əlamətləri qruplar, siniflər üzrə birləşdirməyi bildirir.

6. Nəzəri təfəkkür - ən yüksək ümumiləşdirilmiş hadisələrin ən vacib qanunauyğunluqlarını dərk etməkdir.

7. Deduktiv təfəkkür -fikrin ümumi haldan xüsusi hala, konkret fikrə doğru inkişafıdır.

8. İnduktiv təfəkkür- fikrin xüsusi haldan ümumi hala keçməsi və nəticə çıxarılmasıdır.

9. Alqoritmik təfəkkür – göstəriciləri ardıcıl, sistemli yerinə yetirməkdir.

10.Texniki təfəkkür- texniki yeniliklər üçün fikir fəallığıdır.

11. Reproduktiv təfəkkür- mənimsənilmiş bilikləri fəallaşdırmağa çalışan fiziki fəallıqdır.

12. Produktiv təfəkkür (yaradıcılıq) – yeni – yeni elmin tapşırıqları, məsələləri müstəqil həll etmək bacarığı verir.

13.Sistemli təfəkkür təbiət və cəmiyyət qanunauyğunluqlarını düzgün inkişaf etdirmək, elmi dünyagörüşü formalaşdırmaqdır. [2]

Ali məktəb tələbələrində tarix dərslərində tələbələrin idrak fəallığının inkişaf etdirilməsi tələbələri yaradıcı öyrənməyə, özünün, gələcəyinin yaradıcısı olmağa təşviq edir. Tələbələrin idrak fəallığının formalaşdırılması, fəallaşdırılması tədris prosesində tələbələrin yaradıcılıq dərəcəsinin yüksəldilməsində son dərəcə vacibdir. Tələbələrdə idrak fəallığının tənqidi, yaradıcı, məntiqi düşüncə proseslərinə sövq etməklə təhrik etmək olar. B. Lahey, L. Lefton, R. Malott, R. Plotnik və digər psixoloji nəzəriyyəçilər tənqidi düşünməyə fikirlərimizi, hisslərimizi və davranışlarımızı aydınlaşdırmaq və inkişaf etdirmək üçün düşünmək və qiymətləndirmək kimi baxırlar [15].

Təhsil nəzəriyyəçiləri tələbənin tənqidi düşünmək meylinin əsas amil olduğunu qəbul edirlər. Beləliklə, tələbələr maraqlanmağa, suallar verməyə və onlara söylənilən hər şeyə inanmamağa təşviq edilməlidir.

G. Loving, J. Wilson və J. Oermann tərəfindən göstərildiyi kimi idrak fəallığı bir çox təlim strategiyalarından istifadə etdikdən sonra zamanla təcrübə və qiymətləndirmə ilə inkişaf edir [11].

Tədqiqatımız idrak fəallığını tələbələrdə inkişaf etdirməyi asanlaşdıran amillərə yönəlmişdir. Bu ilk növbədə yaradıcı öyrənmə mühitidir. Yaradıcı təhsil mühiti tələbələri digər öyrənənlərlə qarşılıqlı münasibətdə necə davranmağı sərbəst seçim etməyə sövq edən mühit kimi təsvir edə bilərik. Yaradıcı mühit yeni fikirlərin istehsal olunduğu bir mühitdir.

Araşdırmalara görə dörd element yaradıcılıq mühitində mühüm rol oynayır. Birincisi tələbələrin marağını cəlb etmək, stimullaşdırmaq, mənalı müzakirələr yaratmaq, başqaları ilə düşüncələri bölüşmək, dəstəkləyici mühit yaratmaq. [13]

Məkandan çevik istifadə, geniş çeşidli alətlər və mənbələr tələbələrdə idrak fəallığını formalaşdırmağa kömək edir.

Diane F. Halpern tənqidi düşüncənin tərifini aşağıdakı kimi verir: "Tənqidi düşüncə müsbət nəticə əldə etmə ehtimalını artıran idrak bacarıqlarının və ya strategiyalarının ifadəsidir. Məqsədli, əsaslandırılmış və hədəfə yönəlmiş düşüncəni təsvir etmək üçün istifadə olunur. Tənqidi düşünməyə bəzən yönəlmiş düşüncə də deyilir, çünki istədiyi nəticəyə yönəlir" [ 10] ,

Yüksək səviyyəli düşünmə sualları "izah et", "müqayisə et", "niyə", "problemin həlli olan" , "ən yaxşı nədir və niyə", "razısan və ya razı deyilsən ? " kimi sözlərlə başlayır və ya bitir. Onların sayəsində tələbələrdə müxtəlif idrak səviyyələrində fəallıq yarana bilər [12].

B.S. Bloom, J.L. Craig, M. Duke, J. Mills, G. Page, N.B. Phillips yüksək peşəkar müəllimlərin aşağı səviyyəli suallara nisbətən daha yüksək səviyyəli düşünmə idrak sualları verdiyini müəyyən etmişlər [ 8].

Başqa bir sorğu texnikasının növü Sokrat dialoqudur. R.W. Paul və P. Heaslip bunu bir iddia, mövqe, düşüncə xəttinin mənasını, onun əsaslandırılmasını və ya məntiqi gücünü dərindən araşdıran bir sorğu növü kimi təyin ediblər. Məqsəd fərziyələri, baxışları, nəticələri, dəlilləri araşdırmaq üçün suallar vermək, diqqəti aydınlaşdırmaqdır [9]. Tənqidi düşünmə bacarıqlarına tədris prosesində tələbələrdə idrak fəallığı yaratdığı üçün həmçinin tələbələrə akademik mühit-

də və gündəlik həyatda uğur qazanmasına kömək etdiyi üçün üstünlük verilməlidir [14].

**Problemin elmi yeniliyi.** Ali məktəblərdə Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsinin vacibliyi ilə əlaqədar səmərəli fikirlər irəli sürülmüşdür.

**Problemin praktik əhəmiyyəti.** Ali məktəblərdə Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsi ilə bağlı tədqiqatda əldə olunan nəticələr faydalı təkliflər kimi səciyyə daşıyır.

**Problemin aktuallığı.** Ali məktəblərdə Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsinin mühüm əhəmiyyəti vardır. Ali məktəblərdə Azərbaycan tarixi dərslərində tələbələrdə idrak fəallığının inkişaf etdirilməsini şərtləndirən amillərin sistemləşdirilməsi problem baxımından aktuallıq təşkil edir.

**Ədəbiyyat**

1. Nəzərov A., Mollayeva E. Müasir dövrün təhsil problemləri: Dərs vəsaiti. Bakı, 2011.
2. Nəcəfli T. Tarixin tədrisində müasir üsullar. Bakı, 2000.
3. Mehrabov A. və b. "Pedaqoji texnologiyalar". Bakı, 2006, 295 s.
4. Məmmədov S.A., Əliyev R.Y. Pedaqoji Universitet və institutlarda bakalavr hazırlığı üçün "Azərbaycan tarixi" proqramı, Bakı, 2009, 59 s
5. Paşayev T. Tarixin tədrisi : tarixilik və müasirlik: Monoqrafiya. Bakı: Nurlan, 2006, 280.s.
6. Егорова О.Л. Модульная технология обучения // Преподавание истории в школе,2003, № 7
7. Хантер Б.И. Мой ученики работают на компьютерах Кн.для учителя: М.: Просвещение, 1989, 224 с.
8. Bloom B. S. Taxonomy of Educational Objectives \ B.S.Bloom, M. D.Englehart, E.J.Furst , W.H. Hill, D.R. Krathwohl. –New York: Logmans, 1956.
9. Craig J.L. The Questioning Skills of Nursing Insstructors J.L. Craig , G. Page // Nurse Education, 1981, № 25, p. 18-23
10. Dewey J. How we Think /J.Dewey . Boston : Courier Dover Publications, 1997, 224 p.
11. Loving G.L.İnfusing Critical Thinking into the Nursing Curriculum through Faculty Development / G.L. Loving, J.S.Wilson// Nurse Education.2000, № 25, p. 70-75
12. Mills J. Better Teaching Through Povocation /J.Mills // College Teaching/-1995, № 46, p. 21-25
13. Meyers C. Teaching Students to think Critically . San –Fransisco: Jossey Bass Publishers . 1986, 131.p
14. Paul R.W. Critical Thinking and İntuitive Nursing Practice // R W. Paul , P Heaslip // Advanced Nursing, 1995, № 22, p. 40-47
15. Watson-Glaser Critical Thinking Appraisal User –Guide and Technical Manuel .London : Pearson Education Ltd.,2012, 88 p.

**E-mail:** turann1605@gmail.com

**Rəyçilər :** *ped.ü.fəls.dok., prof.* **İ.H. Cəbrayılov**
*ped.ü.fəls..dok*. **D.M. Musayev**

**Redaksiyaya daxil olub:** 11.01.2021